**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

**ABİTURİYENTİN**

# YADDAŞ KİTABÇASI

(ali təhsil müəssisələrinə I, II, III, IV ixtisas qrupları üzrə
qəbul imtahanlarının ikinci mərhələsi üçün)

Aşağıdakıları imtahana gətirmək qadağandır:



2026

## ƏZİZ ABİTURİYENTLƏR!

Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinə qəbul imtahanlarında sizə uğurlar arzulayır!

DİM-in məqsədi imtahanda biliklərinizi nümayiş etdirmək üçün sizə rahat şərait yaratmaq, şəffaflığı, aşkarlığı və obyektivliyi təmin etməkdir.

Yüksək bilik nümayiş etdiyiniz və imtahanın texnoloji tələblərinə düzgün əməl etdiyiniz təqdirdə uğur qazanacağınıza tamamilə əmin ola bilərsiniz.

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin (imtahan binası, imtahanın tarixi və vaxtı haqqında məlumat imtahana buraxılış vərəqəsində göstərilmişdir).
2. **İmtahana aşağıdakı sənədləri gətirin.**
   - **şəxsiyyəti təsdiq edən sənədin əslini:**
     - Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini (və ya ümumvətəndaş pasportunu);
     - Əcnəbilər icazə vəsiqəsini və ya pasportunu, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün verilmiş sənədi və ya icazə vəsiqəsini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqəsini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqəsini və onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda isə digər sənədləri və ya icazə vəsiqələrini.
   - **imtahana buraxılış vərəqəsini.**

   ***Diqqət! Şəxsiyyət vəsiqəsində fotoşəkil olmayan abituriyent*** *digər tələb olunan sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkli yapışdırılmış arayış təqdim etməlidir. Arayışa abituriyentin "3x4 sm" ölçüdə fotoşəkli yapışdırılmalı və həmin fotoşəkil təhsil müəssisəsinin möhürü ilə təsdiq edilməlidir.*

3. Özünüzlə mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm və ya HB sərtliyində sadə karandaş, qələmyonan və pozan gətirməyi unutmayın.
4. Vaxt bölgüsünü düzgün idarə etmək üçün mexaniki qol saatı gətirməyiniz tövsiyə olunur.
5. **İştirakçı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən hər hansı biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmışdan sonra gəldikdə;
   - imtahana sərxoş vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.

6. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## ABİTURİYENTİN İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

1. İmtahan zalında imtahana buraxılış vərəqəsində göstərilən sıra və yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləyin. Aydın olmadıqda əlinizi qaldırıb nəzarətçiyə müraciət edin.
2. İzahat başa çatdıqdan sonra nəzarətçi sizə üzərində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmiş cavab kartları və cavab vərəqlərini paylayır. Uyğunsuzluq aşkar etdikdə dərhal nəzarətçiyə müraciət edin.
3. **"Cavab kartı"** qapalı və kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların, **"cavab vərəqi"** isə ətraflı yazılı cavablandırılması tələb olunan tapşırıqların cavablarının qeyd olunması üçün nəzərdə tutulur:

**Cavab kartının** 1-ci bölməsində sizin iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap olunmuşdur. Həmin məlumatların düzgünlüyünü diqqətlə yoxlayın. 2-ci bölmədə haqqınızda tələb olunan məlumatları yazın. "**Bəyannamə" hissəsində** imza edin. Bununla siz cavab kartının ön üzündə soyadı, adı və ata adı göstərilən şəxs olduğunuzu təsdiq edir, imtahan zamanı cavabları köçürməyəcəyinizə, başqalarının sizdən köçürməsinə şərait yaratmayacağınıza və digər qaydalara zidd hərəkətlərə yol verməyəcəyinizə dair üzərinizə öhdəlik götürmüş olursunuz. Eyni zamanda, qaydaların pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş məsuliyyət barədə məlumatlandırıldığınızı təsdiq etmiş olursunuz. 3-cü bölmədə sizə təqdim ediləcək sual kitabçasının variantı göstərilmişdir. **Cavab kartının arxa üzündə soyadınızı, adınızı yazın və imza edin. İş nömrəsinin kodlaşdırılması üçün ayrılmış hissədə** iş nömrənizin hər bir rəqəmini sol xanadan başlayaraq rəqəmlərin cavab kartındakı nümunədə göstərilən nümunəyə uyğun olaraq yazın. Sonra hər damanın altındakı sütunda uyğun rəqəmi tapıb, onun yerləşdiyi dairəni tam qaralayın. Bu zaman diqqətli olun: hər sütunda yalnız bir dairə qaralanmalıdır.

**Cavab vərəqinin** 1-ci bölməsində iş nömrəniz, soyadınız, adınız, atanızın adı, bölməniz, qrupunuz, sıra və yeriniz çap olunmuşdur. Bu məlumatları yoxlayın. Sizə veriləcək sual kitabçasının variantı bu bölmədə də göstərilmişdir. 2-ci bölmədə verilmiş **bəyannaməyə imzanızı atın.** Burada da siz cavab vərəqinin ön üzündə soyadı, adı və ata adı göstərilən şəxs olduğunuzu təsdiq edir, imtahan zamanı cavabları köçürməyəcəyinizə, başqalarının sizdən köçürməsinə şərait yaratmayacağınıza, digər qaydalara zidd hərəkətlərə yol verməyəcəyinizə və qaydaların pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş məsuliyyət barədə məlumatlandırıldığınıza dair üzərinizə öhdəlik götürmüş olursunuz.

4. **Cavab kartını** qara və ya tünd göy rəngdə yazan mürəkkəb axıtmayan diyircəkli qələmlə və ya HB sərtliyində sadə karandaşla, **cavab vərəqini** isə yalnız qara və ya tünd göy rəngdə yazan mürəkkəb axıtmayan diyircəkli qələmlə doldurun. Cavab kartı və cavab vərəqindəki məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə işləyərkən ehtiyatlı olun. Cavab kartındakı dairələri tam qaralayın (nümunə ●), kartın arxa üzünün qabarmaması üçün qələmi bərk basmayın. Cavab vərəqində isə qeydlərinizi verilmiş çərçivə daxilində aparın. Orada lazımsız qeydlər aparmayın. Cavab kartını və cavab vərəqini əzmək, ləkələmək, zədələmək və ya cırmaq olmaz.

**DİQQƏT!**

- **Korlanmış cavab kartı (cavab vərəqi) dəyişdirilmir.**

5. Sonra sizə üzərində iş nömrəniz, soyadınız, adınız və ata adınız çap edilmiş, cavab kartınızda və cavab vərəqinizdə göstərilmiş varianta uyğun **sual kitabçası** verilir.

**DİQQƏT!**

- Sizə verilən sual kitabçası sizə məxsus deyilsə və ya cavab kartında və cavab vərəqində göstərilmiş varianta uyğun gəlmirsə, dərhal nəzarətçiyə müraciət edin. Belə ki, imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız cavab kartınızda və cavab vərəqinizdə göstərilmiş varianta uyğun və sizə məxsus olan sual kitabçasının doğru cavabları ilə müqayisə ediləcəkdir. Sual kitabçasının sizə düzgün təqdim olunduğuna əmin olun. Nəzarətçi sual kitabçasını açmağa icazə verdikdən sonra onu vərəqləyərək çap qüsurlarının olub-olmadığını yoxlayın. Belə qüsurlar varsa, problemin aradan qaldırılması üçün nəzarətçiyə müraciət edin.

6. "İmtahan başlandı!" elan edilən andan suallara cavab vermək üçün ayrılan **3 saatlıq** vaxtdan səmərəli istifadə edin. Cavabların cavab kartında və cavab vərəqində qeyd olunması üçün sərf olunan vaxt da bu müddətə daxildir.
7. Cavab kartı və cavab vərəqinin cavablar üçün ayrılmış hissəsi sual kitabçasındakı sualların müvafiq ardıcıllığına uyğun olaraq sıralanmışdır.

   **Sual kitabçasında verilmiş**

   **1) 1-22, 31-52, 61-82** saylı qapalı test tapşırıqlarının hər birinə verilmiş 5 cavab variantından düzgün hesab etdiyiniz bir cavabı seçin və **cavab kartında** müvafiq sualın nömrəsini tapın və seçdiyiniz cavaba uyğun dairəni tam qaralayın. Əgər bir suala cavab olaraq birdən çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.

   **2) 23-26, 53-56 və 83-86** saylı hesablama, seçim və xronologiya tipli açıq test tapşırıqlarının hər birinin cavabını (rəqəmlər və varsa nöqtə ardıcıllığını) **cavab kartında** bu cavab üçün nəzərdə tutulmuş damalara sol xanadan başlayaraq aydın şəkildə yazın. Sonra hər damanın altındakı sütunda

uyğun rəqəmi (nöqtəni) tapıb onun yerləşdiyi dairəni tam qaralayın. Əgər eyni bir sütunda birdən çox dairə qaralanarsa, onda cavab səhv hesab edilir.

**3) 27, 57 və 87** saylı uyğunluğu müəyyən etmə tipli açıq test tapşırıqlarında təqdim edilmiş iki siyahının elementləri arasındakı uyğunluqları müəyyən edin və **cavab kartında** birinci siyahının hər bir elementinin nömrəsinə müvafiq sütunda 2-ci siyahının uyğun elementlərinə aid dairələri tam qaralayın.

**4) 28-30, 58-60, 88-90** saylı situasiya və yaxud mətn üzrə təqdim olunan açıq test tapşırıqlarının hər birinin cavabını isə **cavab vərəqində** həmin tapşırıq üçün verilmiş ayrılmış hissəyə çərçivədən kənara çıxmadan səliqəli və oxunaqlı xətlə yazın.

Ümumi bal hesablanarkən qapalı suallar üzrə doğru cavabların sayından həmin suallar üzrə səhv cavabların sayının ¼-i çıxılır, açıq tipli test tapşırıqları üzrə isə səhv cavablar doğru cavabların sayına təsir göstərmir.

---

**DİQQƏT!**

- Cavabları cavab kartında kodlaşdırarkən yuxarıda göstərilən qaydalara riayət edin.
- Cavabların cavab kartında kodlaşdırılması ilə əlaqədar apellyasiya müraciətlərinə baxılmır.
- Ballarınız hesablanarkən yalnız cavab kartında və cavab vərəqində qeyd etdiyiniz cavablar nəzərə alınır. Sual kitabçasında etdiyiniz qeydlər heç bir hüquqi əhəmiyyət daşımır.
- Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv olunacaqdır.
- İmtahanın gedişi zamanı hər bir abituriyent öz cavab kartının (cavab vərəqinin) və sual kitabçasının qorunmasına və korlanmamasına görə şəxsən məsuliyyət daşıyır.

---

8. Hesablamaları və qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulmuşdur. Buna görə də əlavə kağızdan istifadə etməyə icazə verilmir.
9. "İmtahan başlandı" elan olunan andan **2 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində** imtahandan çıxmaq qadağandır. Qalan vaxt ərzində imtahandan çıxan abituriyentlər cavab kartı və cavab vərəqi ilə birlikdə sual kitabçasını da nəzarətçiyə təhvil verməlidirlər. İmtahanda yalnız sona qədər iştirak edən abituriyentlər sual kitabçasını özləri ilə apara bilərlər.
10. **"İmtahan qurtardı!" elan olunduqda cavab kartınızı və cavab vərəqinizi mütləq nəzarətçiyə təhvil verin. Bu sənədləri təhvil vermədiyiniz halda imtahan nəticələriniz ləğv olunacaqdır.**
11. Cavab kartını və cavab vərəqini nəzarətçiyə təhvil verdikdən sonra imtahana buraxılış vərəqəsində nəzarətçiyə imza etdirməlisiniz.

---

**DİQQƏT!**

- Abituriyent öz cavab kartının və cavab vərəqinin təhvil verilməsinə görə şəxsən məsuliyyət daşıyır.

---

12. Siz cavab kartları və cavab vərəqlərinin sayılaraq zərfə qoyulub bağlanması prosesində iştirak edib, zərfin üzərindəki protokolu imzalaya bilərsiniz.

**ABİTURİYENTƏ QADAĞANDIR:**

- saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası, çanta, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

---

**DİQQƏT!**

- Abituriyentin imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.
- Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

---

- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içki (şəffaf plastik qabda olan qazsız içməli su istisna olmaqla) və tütün məmulatı gətirmək;
- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- səbəbindən asılı olmayaraq, imtahan zalında yerini dəyişmək, gəzişmək, yerindən durmaq, "İmtahan başlandı!" elan olunan andan **2 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi** ərzində zaldan çıxmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;
- nizam-intizam qaydalarını pozmaq;
- başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına, cavab vərəqinə, sual kitabçasına baxmaq və ya öz cavab kartına, cavab vərəqinə, sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
- cavab kartını və cavab vərəqini nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

Belə hallara yol verən abituriyent imtahandan xaric olunacaq və onun imtahan nəticələri ləğv ediləcəkdir. Bu qərardan inzibati qaydada və ya məhkəmə qaydasında şikayət verilə bilər.

DİM-in abituriyentin imtahan qaydalarına zidd hərəkətini imtahandan sonra da aşkar etmək üçün müxtəlif üsulları vardır.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Nəzarətçilər qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra sizin onlara sual verməyiniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçilərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin.

İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmayacaqdır.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**